Respublika.- 2019.- 3 dekabr.- S.6.

# Şəmkir: təhsil işçiləri göstərilən qayğıdan razıdır



**Bu günlərdə Şəmkir Rayon Təhsil Şöbəsinin müdiri Məcid Şıxlınski ilə həmsöhbət olduq. M.Şıxlınski Gəncə Dövlət Pedaqoji İnstitutunun riyaziyyat-fizika fakültəsini müvəffəqiyyətlə bitirib, 1972-ci ildən gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. O, ilk əmək fəaliyyətinə orta məktəbdə müəllim kimi başlamışdır. Məcid Şıxlınskinin savadı və yüksək təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq pedaqoji sahədə müxtəlif rəhbər vəzifələrə irəli çəkilmişdir. 2006-cı ildən M.Şıxlınski Şəmkir Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışır. Onun yüksək peşəkarlığı nəzərə alınaraq dövlətimiz tərəfindən "Əməkdar müəllim" fəxri adına layiq görülmüş və "Cümhuriyyətin 100 illiyi" medalı ilə təltif olunmuşdur.**

Müsahibim söhbət zamanı qeyd etdi ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə milli təhsil özünün ən yüksək inkişaf dövrünü yaşamışdır. Hələ Sovetlər Birliyi dövründə yüzlərlə savadlı azərbaycanlı gənc dünyanın bir sıra nüfuzlu universitetlərinə dövlət hesabına göndərilmiş, təhsillərini davam etdirmişlər. Buna misal olaraq Sübhi Şıxlınski Lomonosov adına Moskva Dövlət Universitetində təhsilini davam etdirmiş, fəlsəfə elmləri namizədi, elmi dərəcəsi almış, hazırda o, Rusiya Nazirlər Kabinetində mühüm vəzifədə çalışır. Bu kimi şəxslərin sayı sonsuzdur. Ulu öndərin respublikaya 2-ci dəfə rəhbərliyi dövründə də müstəqil Azərbaycanda misilsiz işlər görmüşdür. Bu gün Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlara əsasən Azərbaycan təhsilinin maddi-texniki bazasının möhkəmləndirilməsi, pedaqoji sahədə çalışanların əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması, müəllimlərin işə qəbulunda şəffaflığın təmin olunması, pedaqoqların daha məhsuldar çalışmasına stimul verir. Sevindirici haldır ki, son illərdə gənclər müəllimlik peşəsinə daha çox meyil edirlər.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın Birinci vitse-prezdenti Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinin inkişafında misilsiz xidmətləri vardır. Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ölkəmizin hər yerində yüzlərlə qəzalı və köhnə məktəb binaları müasir tipli təhsil ocaqları ilə əvəz olunmuşdur. M.Şıxlınski qeyd etdi ki, Şəmkir rayonu da bu layihələrdən yetərincə bəhrələnmişdir.

Şəmkir rayonunda 78 ümumtəhsil məktəbi, o cümlədən 65 tam, 13 ümumi orta məktəb fəaliyyət göstərir. Bundan əlavə, 2 məktəbdənkənar müəssisə - Uşaq Gənclər İdman və Şahmat məktəbi, Uşaq Gənclər İnkişaf Mərkəzi fəaliyyət göstərir. Ümumtəhsil məktəblərində 34778 nəfər şagirdin təlim-tərbiyəsi ilə 3106 nəfər müəllim məşğul olur. "Ümumi təhsildə keyfiyyət ili" elan edilməsi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20.08.2017-ci il tarixli 261 №-li əmrinin və "Təhsildə keyfiyyət ili" çərçivəsində nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı Nazirliyin "Fəaliyyət planı"na əsasən Rayon Təhsil Şöbəsində "Fəaliyyət planı" hazırlanmış, il çərçivəsində görülmüş işlər şura iclaslarında müzakirə olunmuş, bu sahədə ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri qarşısında ciddi vəzifələr qoyulmuşdur. Bu məqsədlə bütün məktəblərdə monitorinqlər aparılmış, nəticələri təhlil edilmişdir.

Təmayül siniflərdə tədrisin vəziyyəti daim nəzarətdə saxlanılmış, bu sahədə məktəb rəhbərlərinə müəyyən tövsiyələr və göstərişlər verilmişdir. 2019-2020-ci tədris ilindən şagirdlərin peşə seçiminə dəstək verilməsi və onların əmək bazarına asan inteqrasiyasının təmin edilməsi məqsədilə ümumi təhsil müəssisələrində peşəyönümlü təmayül siniflərin açılması və ilin peşə bacarıqlarının tədrisi nəzərdə tutulmuşdur. Rayonumuzda ilk dəfə olaraq 1 №-li Düyərli kənd tam orta məktəbində bu sahə üzrə təmayül sinif yaradılmışdır ki, müəyyən edilmiş üç peşə istiqamətində təhsil almaq istəyənlər həmin məktəbdə təhsil alacaqlar.

Ötən tədris ilində rayon üzrə IX siniflər üzrə 2493, XI siniflər üzrə 1369 nəfər şagird buraxılış imtahanlarında iştirak etmişdir. Ümumi orta təhsili bitirənlərdən 15, tam orta təhsili bitirənlərdən 26 nəfər fərqlənmə attestatı almışlar. Xanallar kənd tam orta məktəbin məzunu Nurcan Abbasova tam orta məktəbi qızıl, Morul tam orta məktəbin məzunu Nəriman Novruzov isə gümüş medalla bitirmişlər.

"Kiçik akademiya"ların fəaliyyətinə diqqəti ildən-ilə artırır, "Hər bir uşaq istedadlıdır" devizi ilə müxtəlif bilik və yarışmaların keçirilməsinə şərait yaradırıq. Rayonun ümumtəhsil məktəblərində təhsil alan ən istedadlı şagirdləri "istedad bankı"na daxil etmiş, onlarla ilboyu səmərəli iş aparılmışdır. Bu tədris ilində fənn olimpiadalarının rayon turunda 1120 nəfər, zona turunda 112 nəfər IX-XI sinif şagirdi iştirak etmiş, onlardan 3 nəfəri respublika turunun final mərhələsində iştirak etmiş, Xanallar kənd tam orta məktəbin XI sinif şagirdi Nurcan Abbasova Azərbaycan dili və ədəbiyyat fənni üzrə III yer tutaraq bürünc medal qazanmışdır. VI sinif şagirdləri riyaziyyat və informatika, VII sinif şagirdlərinin fizika, kimya, biologiya fənləri üzrə bilik müsabiqəsində rayonun 700-dən artıq məktəblisi iştirak etmişdir. Fövqəladə Hallar Nazirliyinin "Fövqəladə hallar uşaqların gözü ilə" müsabiqəsinin rəsm nominasiyasında Füzuli adına məktəb-liseyin IX sinif şagirdi Zərda Qasımlı 3-cü yumşaq oyun nominasiyasında Ə.Cavad adına tam orta məktəbin VIII sinif şagirdi Anar Poladov 3-cü yeri tutmuşdur.

Təhsil Nazirliyinin təşkil etdiyi "Ədəbiyyat biliciləri" müsabiqəsində Füzuli adına məktəb liseyin XI sinif şagirdi Zivər Məmmədova respublika turunda iştirak etmiş 2-ci yeri tutaraq Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. Bundan başqa, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsində Füzuli adına məktəb liseyi IX sinif şagirdi Aydan Haciyeva respublika turunda 2-ci yeri tutmuş, Təhsil Nazirliyi tərəfindən Fəxri Fərman, qiymətli hədiyyə və pul mükafatına layiq görülmüşdür. Rayon Uşaq Gənclər İnkişaf Mərkəzinin şagirdi Türkan Hümbətova "Ekoloji təmiz məhsul - Aqrobiomüxtəliflik" 3-cü respublika müsabiqəsində 2-ci yeri tutaraq gümüş medala layiq görülmüşdür. Morul tam orta məktəbinin coğrafiya müəllimi İsgəndərli Aytac "Pedaqoji mühazirələr" müsabiqəsinin respublika turunda iştirak etmiş, həvəsləndirici mükafata layiq görülmüşdür.

Müsahibim bildirdi ki, cari ildə ali məktəblərə tələbə qəbulunda uğurlu nəticələr əldə edilmişdir. Rayonun 600-dən çox məzunu respublikanın və xarici dövlətlərin nüfuzlu ali təhsil ocaqlarına qəbul olunmuşlar. 19 nəfər 600-dən, 76 nəfər isə 500-dən yuxarı bal toplamışdır. 2018-2019-cu tədris ilində 954 nəfər ali məktəblərə sənət vermiş, onlardan 524 nəfər tələbə adını qazanmışdır. 2 nömrəli Kür qəsəbə tam orta məktəbin məzunu Amil Əhmədov 680 balla Dövlət Təhlükəsizlik Xidməti Akademiyasına, Ə.Cavad adına şəhər tam orta məktəbin məzunu Rzalı Üsyan 675 balla Bakı Ali Neft Məktəbinə, Xanallar kənd tam orta məktəbin məzunu, qızıl medalçı Nurcan Abbasova 654 balla Bakı Dövlət Universitetinə, N.Nərimanov adına şəhər tam orta məktəbin məzunu Əmrahlı Əli 652 balla ADA Unversitetinə, Ə.Cavad adına şəhər tam orta məktəbin məzunu Nərmin İsgəndərova 618 balla Polis Akademiyasına qəbul olmuşlar. Sevindirici haldır ki, Amil Əhmədov və Üsyan Rzalı Prezident təqaüdünə layiq görülmüşlər.

Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətlərində bir sıra vacib işlər həyata keçirilmişdir. 50 məktəbdə cari təmir işləri aparılmış 2 №-li Kür qəsəbə və 1 №-li Düyərli kənd orta məktəbi əsaslı təmir olunmuşdur.

Aparılmış məqsədyönlü tədbirlər nəticəsində rayonun bütün təhsil müəssisələri qışa tam hazır vəziyyətdədir.

Əminliklə qeyd etmək lazımdır ki, Şəmkir təhsil işçiləri əldə etdikləri uğurlarla kifayətlənməyərək daha yüksək zirvələri fəth etmək əzmindədirlər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**